


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

11 iyun 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 21 (3784)


# Qətiyyətin təntənəsi



## Azərbaycan yeni zəfərlərə doğru inamla irəliləyir

**İnsanın xarakterini müəyyən edən ən mühüm mənəvi keyfiyyətlərdən biri möhkəm iradədir. Güclü iradəyə malik insan qarşısına çıxan çətinliklərdən qorxmur, maneələr qarşısında geri çəkilmir və məqsədinə doğru inamla addımlayır.**

Dövlət idarəçiliyində də bu xüsusiyyətlərin xüsusi əhəmiyyəti var. Xalq üçün ən böyük xoşbəxtliklərdən biri ölkənin taleyini möhkəm iradəli, qətiyyətli və məsuliyyətli liderin idarə etməsidir. Belə rəhbərlər çətin qərarlar verməkdən çəkinmir, milli maraqları hər şeydən üstün tutur və xalqın etimadını qazanırlar. Tarix dəfələrlə sübut edib ki, taleyüklü dövrlərdə liderlərin şəxsi keyfiyyətləri bütöv xalqların gələcəyinə təsir göstərir.

Bu baxımdan möhkəm iradə, aydın mövqe və ardıcıl fəaliyyət Azərbaycan Prezidenti İlham Əliyevin siyasi fəaliyyətinin əsas xüsusiyyətlərindəndir. Uzaqgörənlik, siyasi çeviklik və hadisələri düzgün qiymətləndirmək bacarığı onun həyata keçirdiyi siyasətin uğurunu təmin edən başlıca amillər sırasındadır.

Bu gün İlham Əliyev beynəlxalq aləmdə nüfuzlu siyasi liderlərdən biri kimi qəbul olunur. Azərbaycanın müxtəlif dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan münasibətlər qurması, regional və qlobal əhəmiyyət daşıyan layihələrin təşəbbüskarı kimi çıxış etməsi ölkəmizin mövqeyini daha da gücləndirib. Hazırda Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə bir çox ölkənin enerji təhlükəsizliyinə töhfə verir. Qlobal geosiyasi gərginliyin artdığı bir dövrdə Orta Dəhlizin inkişafı istiqamətində görülən işlər də ölkəmizin strateji əhəmiyyətini artırır.

Prezident İlham Əliyevin qətiyyəti xüsusilə Vətən müharibəsi dövründə özünü bütün aydınlığı ilə göstərdi. Həmin günlərdə Azərbaycan yalnız döyüş meydanında deyil, informasiya və diplomatiya cəbhələrində də mübarizə aparırdı. Müxtəlif ölkələrdən edilən təzyiqlərə baxmayaraq, dövlətimizin mövqeyi dəyişməz qaldı.

Prezident İlham Əliyev dünyanın aparıcı media qurumlarına verdiyi çoxsaylı müsahibələrdə Azərbaycanın haqlı mövqeyini faktlar və arqumentlərlə əsaslandırdı, ölkəmizə qarşı aparılan qarayaxma kampaniyalarını ifşa etdi.

Diplomatik müstəvidə də prinsipial mövqe nümayiş etdirildi. Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərdən çıxarılması ilə bağlı konkret öhdəliklər olmadan hərbi əməliyyatların dayandırılmasına razılıq verilmədi. Azərbaycan öz torpaqlarını azad etməklə yanaşı, beynəlxalq humanitar hüququn tələblərinə əməl edən məsuliyyətli dövlət kimi prinsipiallıq göstərdi.

Hazırda işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Qısa müddət ərzində yollar, körpülər, elektrik stansiyaları, yaşayış məntəqələri, məktəblər və digər infrastruktur obyektləri inşa olunub. Bu işlər doğma torpaqlarına qayıdan insanların normal həyat şəraitinin təmin edilməsinə xidmət edir və həmin ərazilərin Azərbaycan torpaqları olduğunu bütün dünyaya göstərir.

Bu gün ölkəmiz bölgədə davamlı sülhün tərəfdarı kimi çıxış edir. Ölkəmiz imzalanmış razılaşmalara sadiqliyini nümayiş etdirir, kommunikasiyaların açılması və regional əməkdaşlığın genişləndirilməsi istiqamətində addımlar atır. Bu zaman Azərbaycan öz gücünə, milli birliyinə və dövlət rəhbərliyinin qətiyyətli siyasətinə arxalanır. Ölkəmizin əsas yolu sülh, ədalət və inkişaf yoludur. Xalqımızın ən böyük arzusu bölgədə sabitliyin möhkəmlənməsi, gələcək nəsillərin təhlükəsiz və firavan şəraitdə yaşamasıdır.

# Böyük Qayıdışın hüquqi təməli

## Dayanıqlı məskunlaşmaya aparan bu prosesin təhlükəsizliyi təmin edilir

Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüz minlərlə soydaşımız doğma yurdundan didərgin düşərək uzun illər məcburi köçkün həyatı yaşamışdır. Buna baxmayaraq, dövlətimiz həmin insanların taleyini heç vaxt diqqətdən kənarda qoymamış, onların sosial müdafiəsini fəaliyyətinin əsas prioritetlərindən birinə çevirmişdir. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan sosial müdafiə siyasəti Prezident İlham Əliyevin rəhbərliyi dövründə genişləndirilərək sistemli xarakter qazanmışdır.

*(Ardı 2-ci səhifədə)*

# Həqiqətin şahidləri

## Gilizlər, güllələr, qəlpələr…

Kriminalistika İdarəsinin Ballistik Ekspertiza Şöbəsinin laboratoriyasının həyətində diqqətimizi yerdəki qalın sintetik lövhələr çəkir. Onların üzərində saysız-hesabsız güllə izləri görünür. Bilinir ki, hər biri dəfələrlə atəşə məruz qalıb. Vaxtilə güllə və giliz nümunələrinin əldə olunmasında istifadə edilən bu lövhələr indi öz yerini daha müasir və texnoloji avadanlıqlara verib.

Bizi qarşılayan şöbə rəisi polis polkovnik-leytenantı Rauf Dadaşov deyir ki, burada təkcə odlu silahlar deyil, soyuq silahlar, qapı qıfılları və müxtəlif mexaniki vasitələrlə bağlı ekspertizalar da aparılır. Trasologiya adlanan bu sahə bir çox cinayətlərin açılmasında mühüm əhəmiyyət daşıyır.

*(Ardı 3-cü səhifədə)*

# Mərkəzi Bankın yeni binası istifadəyə verilib

## Dövlət başçısı açılışda iştirak edib

Prezident İlham Əliyev Mərkəzi Bankın yeni inzibati binasının açılışında iştirak edib.

Yeni bina paytaxtın Heydər Əliyev prospektində yerləşir. Bina 35 mərtəbədən ibarətdir. Burada ümumilikdə 1300 nəfərlik iş sahəsi, konfrans və mətbuat zalları, müxtəlif təlim və toplantı otaqları var.

Binada rəsmi görüş və toplantılar üçün 25 otaq nəzərdə tutulur. Otaqların hamısı zəruri avadanlıqlarla təchiz olunub.

Prezident İlham Əliyev milli pul nişanlarının konseptual yanaşmasının, dizayn xüsusiyyətlərinin və texnoloji inkişaf xəttinin müasir təqdimat üsulları ilə nümayiş olunduğu sərgiyə baxıb.

# Meliorasiya işçiləri təltif olunub

## Prezident bununla bağlı Sərəncam imzalayıb

Prezident İlham Əliyev su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyət göstərən əməkdaşların təltif edilməsi barədə Sərəncam imzalayıb. Təltif olunan şəxslər su təsərrüfatı və meliorasiya sahəsində uzunmüddətli və səmərəli fəaliyyətlərinə görə dövlət mükafatlarına layiq görülüblər.

Sərəncama əsasən, sahənin inkişafına verdikləri töhfəyə görə iki nəfər 2-ci dərəcəli "Əmək" ordeni, altı nəfər 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunub. Bundan başqa, on üç nəfər "Tərəqqi" medalı, bir nəfər isə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə mükafatlandırılıb.

# Millimiz Avropa çempionudur

## Prezident və Birinci vitse-prezident minifutbolçuları təbrik ediblər

Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib. Sosial şəbəkə hesablarında paylaşım edən dövlət başçısı qeyd edib ki, 2022-ci ildə Avropa çempionu, 2025-ci ildə dünya çempionu olan Azərbaycan minifutbol millisi ölkənin idman tarixində daha bir uğura imza ataraq növbəti dəfə Avropa çempionu adını qazanıb. Prezident bu qələbənin komanda idman növündə əldə olunmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Birinci vitse-prezidenti Mehriban Əliyevanın da rəsmi instaqram hesabında qeyd edilib: "Avropa çempionatının qalibi olan Azərbaycan minifutbol yığmasını təbrik edir, milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!".


**Milli Qurtuluş Günü** 2

**Nazir Qazaxda vətəndaş qəbulu keçirib** 3

**Obyektivdə qalan izlər** 4

**Sərrast atıcılar yarışır** 4










# Respublika Xəbərləri

### Bu ölkələrə səfər etməyin

Azərbaycanın Xarici İşlər Nazirliyi beynəlxalq təhlükəsizlik mühitində artan risklərlə əlaqədar vətəndaşlara müraciət edib. XİN xüsusilə Ukrayna və Yaxın Şərqdə münaqişələrin davam etdiyi ölkələrə səfərlərin təhlükəli ola biləcəyini vurğulayıb. Bu səbəbdən vətəndaşlara xarici ölkələrə səfər etməzdən əvvəl təhlükəsizlik məsələlərini nəzərə almaları tövsiyə olunub.

### Qarabağda məşğulluq təmin edilir

Böyük Qayıdış çərçivəsində azad edilmiş ərazilərə köçən 10 623 nəfərin məşğulluğu təmin edilib. Onlardan 7 915 nəfər vakansiyalar üzrə işə düzəlib, 1 828 nəfər fərdi məşğulluqla, 880 nəfər isə özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfat qurub. Eyni zamanda əmək yarmarkaları və peşə kursları təşkil olunub, sosial dəstək tədbirləri həyata keçirilib.

### Kibertəhlükəsizlik Forumu keçirilib

Bakıda keçirilən IV Milli Kibertəhlükəsizlik Forumunda dövlət qurumları, beynəlxalq təşkilatlar və özəl sektor nümayəndələri rəqəmsal təhlükəsizlik, süni intellekt və kibermüdafiə məsələlərini müzakirə ediblər. Forum çərçivəsində əməkdaşlıq memorandumları imzalanıb, "CyberAward" təşəbbüsü təqdim olunub və gənclərlə açıq dialoq sessiyası keçirilib.

### Minatəmizləmə genişlənib

ANAMA-nın məlumatına görə, ötən həftə işğaldan azad edilmiş ərazilərdə 1 545 hektardan çox sahə minalardan təmizlənib. 101 tank əleyhinə və 48 piyada əleyhinə mina, həmçinin 412 partlamamış hərbi sursat zərərsizləşdirilib. Əməliyyatlar müxtəlif rayon və kəndləri əhatə etməklə bir neçə dövlət qurumu və özəl şirkət tərəfindən həyata keçirilib.

### "Yaşıl enerji"yə keçirik

May ayında Azərbaycanda 2,08 milyard kvt-saat elektrik enerjisi istehsal olunub. Bunun 33 faizi bərpaolunan enerji mənbələrinin payına düşüb. Ümumilikdə 689 milyon kVt-saat "yaşıl enerji" hesabına təmin edilib. Naxçıvanda isə elektrik tələbatı tamamilə bərpaolunan mənbələrdən qarşılanıb.

### Avropaya məhsul ixracı

2026-cı ilin ilk 4 ayında Azərbaycan Avropa İttifaqı ölkələri arasında ən çox məhsulu İtaliyaya ixrac edib. İtaliyadan idxal isə 153,9 milyon dollar təşkil edib. İtaliya Azərbaycanın Aİ ilə ticarətində əsas tərəfdaş olaraq qalır. Ardınca Yunanıstan və Bolqarıstan gəlir.

### Regionlara yeni ambulanslar verilib

TƏBİB tərəfindən regionlara 25 yeni ambulans və reanimobil təhvil verilib. Nəqliyyat vasitələri Ağdaş, Abşeron, Gəncə, Lənkəran və digər şəhər və rayonların təcili tibbi yardım bölmələrinə göndərilib. Ambulanslar müasir tibbi avadanlıqlarla təchiz olunaraq təcili yardım xidmətinin maddi-texniki bazasının gücləndirilməsinə xidmət edir.

### Büdcə gəlirlərində artım var

Bu ilin ilk 5 ayında Azərbaycanın dövlət büdcəsi gəlirləri 16,36 milyard manat təşkil edib və proqnozu 1,6 faiz üstələyib. Gəlirlər əsasən vergi, gömrük və Dövlət Neft Fondundan transfertlər hesabına formalaşıb. Xərclər planlaşdırılan səviyyəyə yaxın icra olunub, icmal büdcədə isə gəlirlər xərcləri üstələyib.

### Bank seçimi sərbəstləşir

Azərbaycanda vətəndaşlar gələcəkdə pensiya, əməkhaqqı və sosial ödənişlərini istədikləri bank vasitəsilə ala biləcəklər. Bakıda keçirilən Beynəlxalq Maliyyə və Bankçılıq Sammitində bildirilib ki, layihə məcburi xarakter daşımayacaq və vətəndaşlara bank seçimi üzrə alternativ imkanlar yaradacaq. İlkin mərhələdə əməkhaqqı ödənişlərinin, sonrakı mərhələlərdə isə pensiya və sosial müavinətlərin Ani Ödənişlər Sistemi üzərindən həyata keçirilməsi nəzərdə tutulur.

### Yol polisi xəbərdarlıq edir

Bakı Şəhər BPİ DYPİ "Son zəng" tədbirləri ilə əlaqədar avtomobil icarəsi fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə müraciət edərək bildirib ki, bəzi hallarda məzunlar və ya yetkinlik yaşına çatmayan şəxslər nəqliyyat vasitələrini icarəyə götürməyə cəhd edirlər. Bu səbəbdən icarə şirkətlərindən sürücülük vəsiqəsinin etibarlılığını, şəxsin yaşını və nəqliyyat vasitəsini idarə etmək hüququnu diqqətlə yoxlamaları xahiş olunur. Qayda pozuntusu aşkar edildiyi halda qanunamüvafiq tədbirlər görüləcək.

# Milli Qurtuluş Günü

## Tarixin ağır sınaqlarından qüdrətli dövlətçiliyə…

Azərbaycan xalqının taleyində mühüm yer tutan 15 İyun – Milli Qurtuluş Günü müstəqil dövlətçiliyimizin qorunub saxlanılmasının, sabitliyin və inkişafın başlanğıcı kimi tarixə həkk olunub. Bu gün ölkəmizin müasir inkişaf yolunun əsasının qoyulduğu, dövlətçiliyimizin ağır sınaqlardan uğurla çıxdığı bir dövrün simvoludur.

1990-cı illərin əvvəllərində müstəqilliyini yenidən bərpa edən Azərbaycan ciddi siyasi, iqtisadi və hərbi problemlərlə üzləşmişdi. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal olunur, ölkə daxilində isə hakimiyyət böhranı, siyasi qarşıdurmalar və idarəetmədə yaranmış xaos vəziyyəti daha da ağırlaşdırırdı. Dövlətçiliyin taleyi təhlükə altında idi, ölkədə vətəndaş müharibəsi təhlükəsi yaranmışdı.

Belə mürəkkəb və taleyüklü bir məqamda Azərbaycan xalqı öz ümidini təcrübəli dövlət xadimi Heydər Əliyevə bağladı. Xalqın təkidli tələbi ilə Bakıya qayıdan Heydər Əliyev ölkədə sabitliyin bərpası, qarşıdurmaların aradan qaldırılması və dövlətçiliyin qorunması istiqamətində qətiyyətli addımlar atdı.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkənin ic-



timai-siyasi həyatında dönüş nöqtəsi oldu. Məhz həmin tarixdən etibarən Azərbaycanda dövlət quruculuğu prosesində yeni mərhələ başlandı, ölkə parçalanmaq təhlükəsindən xilas edildi, qanunsuz silahlı dəstələrin fəaliyyətinə son qoyuldu və sabitliyin bərpası istiqamətində mühüm tədbirlər həyata keçirildi.

Milli Qurtuluş gününün nəticəsi olaraq Azərbaycan qısa müddətdə inkişaf yoluna qədəm qoydu. Dövlət institutları möhkəmləndirildi, hüquqi və demokratik islahatlara start verildi, iqtisadi inkişafın əsasları yaradıldı. Sonrakı illərdə əldə olunan uğurlar, ölkəmizin beynəlxalq nüfuzunun artması və güclü dövlətə çevrilməsi məhz həmin dövrdə formalaşdırılmış strateji kursun nəticəsidir.

Bu gün Azərbaycan müstəqil, güclü və qalib dövlət kimi inkişaf edir. Əldə olunan nailiyyətlər, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası xalqımızın birliyinin, dövlətimizin gücünün və milli maraqlara əsaslanan siyasətin təntənəsidir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı müstəsna xidmətlərindən biri də Prezident İlham Əliyev kimi uzaqgörən, dövlətinə və millətinə sədaqətli Lider yetişdirməsidir. Ata və oğulun birlikdə əbədiləşmiş fotolarının birində onların çiyin-çiyinə dayanıb uzaq üfüqləri seyr etməsi xüsusi məna daşıyır. Bu sadə, lakin dərin məzmunlu fotokadrda onlar sanki illər öncədən bugünkü müasir, qüdrətli və suverenliyini tam bərpa etmiş Azərbaycanı seyr edirdilər.

Ümummilli Liderin qoyduğu möhkəm dövlətçilik təməlləri üzərində Prezident İlham Əliyevin rəhbərliyi ilə ucalan müasir Azərbaycan Zəfərlə taclanmış müstəqilliyimizin ən parlaq təcəssümüdür.

Buna görə də Ümummilli Liderin ruhu şaddır. Onun illər boyu qurduğu möhkəm təməllər, düşünülmüş siyasət və milli həmrəylik sayəsində Azərbaycan öz tarixi ədalətini bərpa etdi. İllərlə düşmən tapdağında qalan yurd yerlərimiz azad olundu, ölkəmizin ərazi bütövlüyü təmin edildi. Onun ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Yeni zaman keçdikcə Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyev zirvəsi daha uca görünür və dahi rəhbərin milləti qarşısındakı xidmətləri daha dərindən dərk olunur.

# Böyük Qayıdışın hüquqi təməli

## Dayanıqlı məskunlaşmaya aparan bu prosesin təhlükəsizliyi təmin edilir

*(Əvvəli 1-ci səhifədə)*

Təsadüfi deyil ki, 2004–2019-cu illərdə məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı dövlətimizin başçısı tərəfindən 75 fərman və sərəncam imzalandı, Milli Məclis tərəfindən 11 qanun qəbul edildi, Nazirlər Kabineti isə 224 qərar və sərəncam təsdiqlədi. Bütün bunlar dövlətin məcburi köçkün probleminə uzunmüddətli və strateji yanaşmasının göstəricisidir.

### Dövlətimizin sosial siyasəti dünyaya örnək oldu

İlkin mərhələdə həyata keçirilən mühüm layihələrdən biri məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması idi. Bu istiqamətdə ölkənin müxtəlif bölgələrində 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək istifadəyə verildi. Nəticədə 62 mindən çox ailənin, yəni 300 mindən artıq vətəndaşın yaşayış şəraiti köklü şəkildə yaxşılaşdırıldı. Çadır düşərgələrinin ləğvi, vaqon şəhərciklərində və yararsız tikililərdə yaşayan insanların yeni ev və mənzillərlə təmin olunması dövlətimizin sosial siyasətinin mühüm nailiyyətlərindən biri kimi tarixə düşdü.

Amma dövlət qayğısı yalnız ev və mənzil təminatı ilə məhdudlaşmadı. Məcburi köçkün ailələrinə vahid aylıq müavinət ödənildi, təhsil və vergi güzəştləri tətbiq olundu, ünvanlı sosial yardım proqramları həyata keçirildi, minlərlə insan məşğulluq layihələrinə cəlb edildi. Əmək qabiliyyətli məcburi köçkünlərin 161 min nəfəri daimi işlə, 200 min nəfəri isə müxtəlif dövrlərdə müvəqqəti işlə təmin olundu. Sahibkarlığın inkişafı məqsədilə minlərlə ailəyə güzəştli kreditlər ayrıldı. Bütün bunların nəticəsində məcburi köçkünlər arasında yoxsulluğun səviyyəsi təxminən 8 faizə qədər azaldı.

Bu siyasətin mühüm istiqamətlə-



rindən biri də təhsil sahəsi idi. Dövlət məcburi köçkün ailələrinin övladlarının təhsil imkanlarının məhdudlaşmasına imkan vermədi. Minlərlə gənc ali təhsil almaq imkanı əldə etdi. Hazırda ali məktəblərə qəbul olunmuş minlərlə tələbənin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Bu isə insan kapitalının formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

### Sülh yaradan Vətən müharibəsi

44 günlük Vətən müharibəsində qazanılan qələbə isə ölkəmizin qarşısında tamamilə yeni reallıq yaratdı. Artıq dövlətin əsas vəzifəsi məcburi köçkünlük şəraitini idarə etmək deyil, insanların doğma torpaqlarına qayıdışını və həmin torpaqlarda dayanıqlı həyat qurmasını təmin etmək idi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq olunması bu yeni mərhələnin hüquqi və strateji əsaslarını müəyyənləşdirdi.

### Qarabağ Azərbaycanın öz gücü ilə dirçəlir

Son 4 il ərzində "Böyük Qayıdış" proqramının həyata keçirilməsi məqsədilə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılıb. Bu vəsait hesabına Qarabağ və Şərqi Zəngəzurda onlarca yaşayış məntəqəsi yenidən qurulub, müasir infrastruktur yaradılıb, yollar, məktəblər, xəstəxanalar və sosial obyektlər tikilib. Bu gün artıq 85 minə yaxın vətəndaş həmin ərazilərdə yaşayır, çalışır və təhsil alır.

Məhz bu mərhələdə keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının daha da təkmilləşdirilməsi zərurəti yarandı. Milli Məclisdə müzakirə olunan qanun layihələri də bu ehtiyacdan irəli gəlir.

Məlumdur ki, qayıdış prosesinin mühüm istiqamətlərindən biri keçmiş məcburi köçkünlərin konstitusion mülkiyyət hüquqlarının təmin edilməsidir. Uzun illər insanlar öz evlərindən və əmlaklarından məhrum qalmışlar. Yeni hüquqi mexanizmlər onların yalnız yaşayış sahələri ilə təmin edilməsini deyil, həmin yaşayış sahələrinin tamhüquqlu mülkiyyətçisinə çevrilməsini nəzərdə tutur. Bu hüquqi yenilik tarixi ədalətin bərpası, insan hüquqlarının təmin olunması və vətəndaşların doğma torpaqlara bağlılığının möhkəmləndirilməsi deməkdir.

Milli Məclisdə müzakirə edilən dəyişikliklər Mənzil Məcəlləsini, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunları əhatə edir. Bu dəyişikliklər məcburi köçkünlük dövründən Böyük Qayıdış mərhələsinə keçidin hüquqi çərçivəsini müəyyənləşdirir və sosial müdafiə tədbirlərinin yeni reallıqlara uyğunlaşdırılmasını təmin edir.

Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni yaşayış məntəqələri yalnız evlərdən ibarət deyil. Burada məktəblər, uşaq bağçaları, tibb müəssisələri, xidmət mərkəzləri, rəqəmsal infrastruktur və yeni iş yerləri yaradılır. Məqsəd insanların rahat, təhlükəsiz və perspektivli həyatını təmin etməkdir.

### Şəhərlər sabitlik zəminində ucalır

Azərbaycanın həyata keçirdiyi ən böyük sosial və iqtisadi transformasiya layihələrindən biri olan bu "Böyük Qayıdış" proqramının uğurla həyata keçirilməsi, heç şübhəsiz ki, azad edilmiş ərazilərdə təhlükəsizliyin təminatı ilə birbaşa bağlıdır. Genişmiqyaslı quruculuq işləri torpaqların minalardan təmizlənməsi və müharibə zamanı atılıb qalan silah-sursatların aşkar edilib götürülməsi ilə paralel şəkildə bu gün də davam etdirilir. Bu bölgədə istənilən risk və təhdidlərin qarşısının alınması üçün gecə-gündüz fasiləsiz xidmət aparan daxili işlər orqanlarının əməkdaşları digər güc strukturları ilə birgə bir vaxtlar terror mərkəzi kimi tanınan şəhərləri ölkənin ən təhlükəsiz şəhərlərinə çeviriblər. Yenidən inşa edilən şəhərlər, rayonlar, kəndlər məhz bu sabitlik zəmininin üzərində ucalmaqdadır.

# Nazir Qazaxda vətəndaş qəbulu keçirib

## Ağstafada işə gənclərin sıra baxışı olub









Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 3-də və 4-də Qazax rayonunda növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Qazax rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 211 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN DQ-nin Ağstafa rayonunda yerləşən hərbi hissəsində polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 238 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Həqiqətin şahidləri

## Gilizlər, güllələr, qəlpələr…

*(Əvvəli 1-ci səhifədə)*

Ekspertlər araşdırmalar zamanı qapının orijinal açarla, surəti çıxarılmış açarla açılıb-açılmadığını, yaxud qıfıla kənar müdaxilə edilib-edilmədiyini müəyyənləşdirirlər. Əldə olunan nəticələr isə istintaqın gedişinə və qəbul ediləcək qərarlara mühüm təsir göstərir.

### Güllələr həqiqəti "danışır"

Şöbənin əsas işi silahların kriminalistik tədqiqatıdır. Hadisə yerlərindən götürülən, könüllü təhvil verilən və ya tapılan silahlar burada yoxlanılır. Son illər işğaldan azad edilmiş ərazilərdən gətirilən silah-sursat da ekspertlərin masasının üzərinə gəlir.

Mütəxəssislər silahın modelini, texniki vəziyyətini və hər hansı cinayətdə istifadə olunub-olunmadığını müəyyənləşdirirlər. Hadisə yerindən tapılan gilizlə təqdim olunan silah arasında uyğunluq da burada araşdırılır. Bunun üçün həm elektron məlumat bazalarından, həm də xüsusi eyniləşdirmə mikroskoplarından istifadə edilir.

Burada ən diqqətçəkən avadanlıqlardan biri xüsusi təyinatlı su tankeridir. Bir neçə il əvvələ qədər ekspertlər müqayisəli tədqiqat üçün güllə nümunələrini qalın sintetik örtüklərə atəş açmaqla əldə edirdilər. Bu zaman güllələr müəyyən dərəcədə deformasiyaya uğrayırdı. Hazırda isə eksperimental atəşlər su tankerinin içərisinə açılır. Nəticədə güllələr demək olar ki, ilkin formasını qo-



ruyub saxlayır və bu da ekspertiza prosesinin daha dəqiq aparılmasına imkan yaradır.

### Eksperimental atəşin sirri

Biz orada olanda "Makarov" tipli tapançaların düzüldüyü masanın arxasında çalışan mütəxəssis silahı söküb-yığır, onun saz vəziyyətdə olub-olmadığını yoxlayırdı. Dedilər ki, bundan sonra güllə-giliz nümunələrinin götürülməsi üçün su tankerində atəş açılır. Güllə suyun içində hərəkətini itirdiyindən üzərində yalnız silahın lüləsində yaranmış izlər qalır. Bu isə eyniləşdirmənin dəqiqliyini artırır.

Şöbənin əməkdaşı, polis kapitanı Elçin Məmmədov deyir ki, ekspertizaya vətəndaşlar tərəfindən könüllü təhvil verilmiş və ya təsadüfən tapılmış silahlar göndərilir. Bəzən isə hər hansı şəxsin cinayətdə iştirak etməsi ehtimalı yarandıqda onun silahı araşdırmaya cəlb olunur. Bu şöbədə son illər ictimai rezonans doğuran bir sıra ağır cinayət hadisələrində istifadə edilmiş silahlar da



ekspertiza olunub.

### Partlayış yeri məlumat mənbəyidir

Ballistik Ekspertiza Şöbəsindən ayrılıb Partlayış-texniki Ekspertiza Şöbəsinə keçirik. Burada atmosfer tam fərqlidir. Müxtəlif qəlpələr, sursat hissələri və metal fraqmentlər ilk baxışdan adi metal parçalarını xatırlatsa da, bu nümunələr mütəxəssislər üçün mühüm məlumat mənbəyidir.

Şöbənin rəisi polis polkovnik-leytenantı Elşən Kazımov bildirir ki, burada partlayıcı qurğuların və partlayıcı maddələrin tədqiqatı aparılır. Hadisə yerlərindən gətirilən əl qumbaraları, mərmilər və digər sursatlar laboratoriyada detallı şəkildə araşdırılır. Ekspertlər araşdırmalar zamanı sursatın hansı ölkədə və hansı ildə istehsal edildiyini müəyyənləşdirirlər. Eyni zamanda, onun zavod istehsalı olub-olmadığı, yaxud sonradan dəyişdirilərək kustar üsulla hazırlanıb-hazırlanmadığı da dəqiqləşdirilir. Onun sözlərinə görə, partlayış hadisələrində ən vacib mərhələlərdən biri hadisə yerinin düzgün müayinəsidir. Əməkdaşlar qəlpələrin formasını, tərkibini və yayılma istiqamətini öyrənərək partlayışın mənbəyini müəyyənləşdirirlər. Kimyəvi analizlər vasitəsilə barıt, trotil və digər partlayıcı maddələrin izləri aşkarlanır. Hətta insan bədənindən çıxarılan qəlpələrin də hansı partlayış nəticəsində yarandığını müəyyən edə bilirlər. Bu məlumatlar hadisənin səbəblərinin aydınlaşdırılmasında və cinayətlərin açılmasında mühüm rol oynayır.

### Mütəxəssis tövsiyəsi...

Müsahibimiz onu da qeyd edir ki, işğaldan azad olunan ərazilərə qayıdan sakinlərimiz tanımadıqları metal əşyalara yaxınlaşmamalıdırlar. Çünki uzun illər keçsə belə, ərazidə gizlədilmiş partlayıcı qurğular hələ də qala bilər. Bəzən bir minanın altında digər mina yerləşdirilir və təhlükə gözlənilmədən ortaya çıxır.

Kriminalistika İdarəsindən ayrılarkən cinayətkarlıqla mübarizənin ən mühüm cəbhələrindən birini geridə qoyurduq. Burada hər bir iz, hər bir detal və hər bir sübut həqiqətə aparan yolun bir hissəsidir. Buradakı əməkdaşların səssiz və dəqiq işi sayəsində ən kiçik izlər belə "danışmağa" başlayır. Nəticədə həm cinayətkarın müəyyən edilməsi, həm də həqiqətin üzə çıxarılması və ədalətin bərqərar olması təmin edilir.

***R.Mehtiyev***

# Baş İdarə təlimlər keçirir

## İnsan alverinə qarşı profilaktik tədbirlər görülür

Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin təşkilatçılığı ilə iyunun 5-də Azərbaycan Turizm və Menecment Universitetində "İnsan alveri ilə mübarizədə təhsil müəssisələrinin rolunun gücləndirilməsi" mövzusunda təlim təşkil olunub.

Tədbirdə Baş İdarənin əməkdaşları tərəfindən iştirakçılara insan alverinin profilaktikası, onun mahiyyəti, doğurduğu təhlükələr, həyata keçirilən mübarizə fəaliyyəti, dövlət tərəfindən təmin edilən inzibati, cinayət-hüquqi, müdafiə və digər tədbirlər barədə geniş məlumat verilib.

Təlimdə ekspertlərin çıxışları da dinlənilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Çaylara qanunsuz müdaxilə

## Polis qanunauyğun tədbirlər görüb

DİN-in Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti ilə birgə çayların mühafizə zonaları və məcralarına qanunsuz müdaxilə hallarının qarşısının alınması məqsədilə tədbirlər həyata keçiriblər.

Qəbələ və Lənkəran rayonlarında keçirilən son tədbirlər zamanı qeyd olunan ərazilərdə yerləşən çayların mühafizə zolaqlarında qanunvericiliyin tələblərinin pozulması halları aşkarlanıb.

Müəyyən edilib ki, bəzi ərazilərdə müvafiq icazələr olmadan qazıntı işləri aparılıb, su mühafizə zonalarında müxtəlif təyinatlı qurğular inşa olunub, eləcə də çayların təbii axınına və ətraf mühitə mənfi təsir göstərən fəaliyyətlər həyata keçirilib.

Aşkarlanmış faktlarla bağlı toplanmış materiallar üzrə qanunvericiliyə uyğun zəruri hüquqi məsuliyyət tədbirləri görülür.

Araşdırmalar davam etdirilir.

# Narkotacirlərə zərbə

## Narkotiklərin qanunsuz dövriyyəsi baş tutmadı

Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirilib. Tədbir zamanı 27 yaşlı P.Bayramov və onunla əlbir olan 46 yaşlı qadın saxlanılıb. Onlardan 6 kiloqramdan artıq narkotik vasitə marixuana və tiryək aşkarlanıb.

Araşdırma zamanı saxlanılanların narkotikləri paytaxt ərazisində ayrı-ayrı ünvanlara yerləşdirərək satışını təşkil etməyi planlaşdırdıqları məlum olub.

Faktla bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə hər iki şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

Araşdırmalar davam etdirilir.

# Məsuliyyətdən yayına bilmədi

## Polis oğurluqların üstünü açıb

Paytaxtın müxtəlif ərazilərində qeydə alınan oğurluq hadisələrinin üstü polis əməkdaşları tərəfindən açılıb.

Belə ki, Sabunçu rayonunda yerləşən obyektlərin birindən ümumi dəyəri 2300 manat olan 6 ədəd proyektor və noutbuk oğurlanıb. Keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 22 yaşlı F.İdrisov müəyyən edilərək saxlanılıb.

Digər əməliyyat zamanı isə Yasamal rayonunda 2000 manat dəyərində mobil telefon oğurlamaqda şübhəli bilinən 35 yaşlı L.Məmmədova saxlanılıb.

Araşdırma aparılır.

# Gizli istixana aşkarlanıb

## Şübhəli şəxs saxlanılıb, istintaq araşdırması davam etdirilir

Polis əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsinə, eləcə də narkotik xassəli bitkilərin kultivasiyasına qarşı əməliyyatlar davam etdirilir. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə Abşeron rayonunun Novxanı qəsəbəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 45 yaşlı E.Qurbanov saxlanılıb.

Onun yaşadığı ünvana və həyətyanı sahəsində yerin altında hazırladığı gizli bunkerə baxış zamanı kultivasiya yolu ilə yetişdirilmiş, ümumi çəkisi 11 kiloqramdan artıq olan 209 ədəd çətənə kolu, həmçinin 2 kiloqrama yaxın marixuana aşkarlanaraq götürülüb.

Araşdırmalar zamanı müəyyən edilib ki, E.Qurbanov bunkerə xüsusi havalandırma, işıqlandırma və istilik sistemləri quraşdıraraq çətənə bitkilərinin yetişdirilməsi üçün münbit şərait yaradıb.

Faktla bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə E.Qurbanov barəsində həbs qətimkan tədbiri seçilib.

Araşdırmalar aparılır.

# Obyektivdə qalan izlər

## Küçə kameralarının açdığı cinayətlər, xarici təcrübə

**Müasir şəhərləri müşahidə kameraları olmadan təsəvvür etmək çətindir. Küçələrdə, parklarda, ticarət mərkəzlərində və yaşayış binalarının ətrafında quraşdırılan bu qurğular hər gün minlərlə görüntünü yaddaşa köçürür. Adətən onların mövcudluğunu hiss etmirik. Lakin hər hansı cinayət baş verdikdə həmin kameralar istintaqın ən etibarlı şahidinə çevrilir.**



Bəzən bir neçə saniyəlik görüntü aylarla davam edən araşdırmanın taleyini həll edir. Dünyanın müxtəlif ölkələrində baş vermiş bir sıra səs-küylü hadisələr sübut edib ki, cinayətkarlar nə qədər ehtiyatlı davransalar da, kameraların yaddaşından yayınmaq həmişə mümkün olmur.

### Terrorçunu kameralar "görüb"

2013-cü il aprelin 15-də ABŞ-ın Boston şəhərində keçirilən marafon zamanı iki partlayış baş verdi. Hadisə nəticəsində üç nəfər həlak oldu, yüzlərlə insan yaralandı. Terror aktından dərhal sonra Federal Təhqiqat Bürosu və yerli polis əməkdaşları şəhərin müxtəlif nöqtələrində yerləşən müşahidə kameralarının görüntülərini toplamağa başladılar.

Minlərlə saatlıq videomaterialın araşdırılması nəticəsində iki şübhəli şəxsin marafonun finiş xəttinə yaxın ərazidə hərəkət etdiyi müəyyən edildi. Kameralar onların marşrutunu addım-addım izləməyə imkan verdi. Nəticədə terror aktını törədən şəxslərin kimliyi müəyyənləşdirildi və onların axtarışına başlanıldı. Mütəxəssislər bu hadisəni müşahidə kameralarının cinayətlərin açılmasında oynadığı rolun ən parlaq nümunələrindən biri hesab edirlər.

### İtkin tələbə necə tapıldı?

2018-ci ildə ABŞ-da universitet tələbəsi Molli Tibbetts qaçışa çıxdıqdan sonra itkin düşdü. Günlərlə davam edən axtarışlar nəticə vermirdi. İstintaq zamanı ərazidəki təhlükəsizlik kameralarının görüntüləri araşdırıldı. Kadrlardan birində avtomobilin gənc qızı izlədiyi aşkarlandı. Bu görüntü istintaq üçün əsas yaratdı. Sonradan avtomobilin sahibi müəyyən edildi və aparılan araşdırma nəticəsində cinayətin üstü açıldı. ABŞ mediasında geniş işıqlandırılan bu hadisə bir daha göstərdi ki, bəzən diqqətdən yayınan bir detal belə istintaqın istiqamətini dəyişə bilir.

### Özünü ələ verənlər

2024-cü ildə İngiltərənin Mançester şəhərində iki nəfər mağazanı yandırmağa cəhd göstərərkən gözlənilməz vəziyyətlə üzləşdi. Onlar obyektin giriş hissəsinə yanacaq tökərək alovlandırmaq istədilər. Lakin alov qəfil onların üzərinə sıçradı və hadisə yerindən qaçmağa məcbur oldular.

Bütün baş verənlər təhlükəsizlik kameraları tərəfindən qeydə alınmışdı. Sonradan görüntülər polisə təqdim edildi və şübhəlilərin müəyyənləşdirilməsi üçün istifadə olundu. Hadisə sosial şəbəkələrdə də geniş yayılaraq uzun müddət müzakirə edildi.

### Bir şəklin açdığı sirr

2024-cü ildə İspaniyada itkin düşmüş şəxslə bağlı araşdırma zamanı gözlənilməz mənbə istintaqa kömək etdi. Araşdırma aparan əməkdaşlar internetdə yayımlanan görüntüləri incələyərkən diqqətçəkən bir detal aşkar etdilər. Küçə görüntülərindən birində avtomobilin yük yerinə böyük bağlamanın yerləşdirildiyi görünürdü. Bu görüntü araşdırmanın istiqamətini dəyişdi və sonrakı istintaq hərəkətlərinə mühüm təkan verdi.

Hadisə bir daha göstərdi ki, müasir texnologiyalar bəzən ən gözlənilməz məqamlarda cinayətlərin açılmasına yardım edə bilir.

### Texnologiyanın yaddaşı

Təhlillər göstərir ki, son illərdə üstü açılan bir çox ağır cinayətin araşdırılmasında müşahidə kameralarının qeydə aldığı görüntülər həlledici rol oynayıb. Bu kameralar nə danışır, nə də hadisələrə müdaxilə edir. Sadəcə gördüklərini yadda saxlayırlar. Qeydə alınan kadrlar bəzən aylarla davam edən araşdırmalara aydınlıq gətirir, bəzən isə gizlədilməyə çalışılan həqiqətlərin üzə çıxmasına səbəb olur. Texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə müşahidə kameraları şəhər həyatının ayrılmaz hissəsidir. Onlar təkcə təhlükəsizliyin təmin olunmasına xidmət etmir, həm də həqiqətin üzə çıxarılması və ədalətin bərpasında mühüm rol oynayır.

Dünyanın müxtəlif ölkələrində baş vermiş hadisələr sübut edir ki, bəzən cinayətin açılması üçün cəmi bir neçə saniyəlik görüntü kifayət edir. Həmin kadrlar isə çox vaxt heç kimin diqqət yetirmədiyi "səssiz şahidlərin" yaddaşında qalaraq həqiqətə gedən yolu göstərir.

*Aytən Tahirova*

# Sərrast atıcılar yarışır

## Güllə atıcılığı üzrə zona yarışları keçirilir



Daxili işlər orqanlarının əməkdaşları arasında xidməti silahdan güllə atıcılığı üzrə zona yarışlarına start verilib. Yarışların ilk mərhələsi iyunun 2-3-də Zaqatala şəhərində keçirilib.

Zona yarışında Balakən, Zaqatala, Qax, Qəbələ, İsmayıllı, Oğuz, Göyçay, Ağsu, Yevlax, Ağdaş, Ucar, Kürdəmir, Şəki, Mingəçevir, Xocalı və Zərdab rayon polis şöbələrinin əməkdaşları iştirak ediblər.

İştirakçılar verilən tapşırıqlar üzrə bacarıqlarını nümayiş etdiriblər. Yarışların yekununda fərdi və komanda hesabında qaliblər müəyyənləşdirilib.

Ümumi komanda nəticələrinə əsasən Zaqatala Rayon Polis Şöbəsinin komandası birinci yerə layiq görülüb. Göyçay Rayon Polis Şöbəsinin komandası ikinci, Zərdab Rayon Polis Şöbəsinin komandası isə üçüncü yeri qazanıb.

Yarışların növbəti mərhələsi iyunun 4-5-də Quba şəhərində keçirilib. Sumqayıt, Abşeron, Xaçmaz, Quba, Qusar, Siyəzən, Qobustan, Xızı, Şamaxı, Şabran, Qubadlı və Zəngilan rayon polis şöbələrinin əməkdaşlarının iştirak etdiyi yarış da gərgin mübarizə şəraitində baş tutub.

Nəticələrə əsasən, Sumqayıt Şəhər Polis İdarəsinin komandası birinci yerə layiq görülüb. Qusar Rayon Polis Şöbəsinin komandası ikinci, Abşeron Rayon Polis İdarəsinin komandası isə üçüncü yeri tutub.

Qeyd edək ki, zona yarışlarında fərqlənən polis əməkdaşları və komandalar daxili işlər orqanlarının əməkdaşları arasında keçiriləcək güllə atıcılığı üzrə respublika çempionatında iştirak hüququ qazanıblar.

*Ləman Babayeva*

# Cəza sisteminin tarixi inkişafı

## Ədalət anlayışı necə yarandı?

Bu gün dünyanın əksər ölkələrində cəza sistemi qanunlara, məhkəmə qərarlarına və insan hüquqlarına əsaslanır. Lakin tarix boyu bu sistem həmişə belə olmayıb. Bir zamanlar insanlar mübahisələri qisas almaqla həll edir, cəzalar isə çox vaxt sərt nəticələrə səbəb olurdu. Minilliklər ərzində cəmiyyət inkişaf etdikcə ədalət anlayışı da dəyişib və müasir hüquq sistemlərinin əsası formalaşıb.

İlk insan icmalarında qanunlar yazılı şəkildə mövcud deyildi. Davranış qaydaları adətlər, ənənələr və tayfa başçılarının qərarları ilə müəyyən edilirdi.

Tarixdə ilk yazılı qanun toplularından biri hesab edilən Hammurapi qanunları cəza sisteminin inkişafında mühüm mərhələ oldu. Burada müxtəlif hüquq pozuntularına görə konkret cəzalar müəyyənləşdirilmişdi. Bu isə hüquqi münasibətlərin ilk dəfə sistemli şəkildə tənzimlənməsinə imkan yaratdı.

Qədim Romada hüquq sistemi daha da təkmilləşdirildi. Məhkəmə prosedurları, şahid ifadələri və sübutların qiymətləndirilməsi kimi anlayışlar formalaşdı. Roma hüququ sonrakı dövrlərdə bir çox ölkələrin qanunvericiliyinə təsir göstərərək müasir hüquq sistemlərinin əsaslarından birinə çevrildi.

Orta əsrlərdə isə cəza siyasəti yenidən sərtləşdi. Bir çox ölkələrdə dini və siyasi təsirlərin güclü olması ağır cəzaların tətbiqinə səbəb olurdu. Hüquqi müdafiə imkanları məhdud idi və insan hüquqları anlayışı hələ formalaşmamışdı.

XVIII əsrdə başlayan maarifçilik dövrü hüquqa baxışı dəyişdirdi. Hüquqşünaslar və filosoflar cəzanın yalnız qisas və ya qorxu yaratmaq məqsədi daşımamalı olduğunu irəli sürdülər. Beləliklə, şəxsin islah olunması və yenidən cəmiyyətə qaytarılması ideyası meydana gəldi.

Müasir dövrdə cəza sistemi insan hüquqlarının qorunması prinsipi üzərində qurulur. Həbs və digər cəza tədbirlərinin məqsədi təkcə qanun pozuntusuna reaksiya vermək deyil, həm də şəxsin sosial həyata yenidən uyğunlaşmasına kömək etməkdir. Cəza sisteminin tarixinə nəzər saldıqda aydın olur ki, qanunlarla bərabər, insanların ədalətə baxışı da dəyişib. Bir vaxtlar qisas üzərində qurulan yanaşma zamanla hüququn aliliyinə və insan hüquqlarına əsaslanan sistemlə əvəzlənib.

*A.Tahirova*

# Dünyada uşaqların rəqəmsal təhlükəsizliyi

## Onlayn risklərə qarşı hüquqi və ictimai tədbirlər gücləndirilir

Müasir dövrdə virtual aləm, sosial şəbəkələr təkcə böyüklərin deyil, uşaq və yeniyetmələrin də həyatının ayrılmaz hissəsinə çevrilib. Uşaqlar internet platformaları, sosial şəbəkələr vasitəsilə asudə vaxtlarını keçirir, müxtəlif insanlarla ünsiyyət qururlar. Lakin rəqəmsal platformalar müsbət tərəfləri ilə yanaşı, ciddi kibertəhdidləri, psixoloji travmaları da özündə ehtiva edir.

Xüsusən son dönəmlərdə yeniyetmələr arasında sosial şəbəkələrdə təhqir, şantaj və təcrid olunma halları kütləviləşib. Bu, uşaqlarda depressiya, özünəqapanma meyillərini kəskin şəkildə artırır. Şiddət, narkotik maddələrin təbliği və başqa müxtəlif məzmunlar uşaqların psixikasını ciddi şəkildə zədələyir. Alqoritmlər uşaqları saatlarla ekrana bağlamaq üçün işlənib hazırlanıb. Bu isə diqqət dağınıqlığına, yuxu pozğunluğuna, real dünyadan qopmaya səbəb olur.

Dünyanın bir çox inkişaf etmiş ölkəsi bu təhlükənin qarşısını almaq üçün hüquqi addımlar atmağa başlayıb. Çünki problemin yalnız valideyn nəzarəti ilə həll olunmadığı sübuta yetirilib. Avstraliya hökuməti 16 yaşdan kiçik şəxslərin sosial şəbəkələrdən istifadəsinə məhdudiyyətlər tətbiq edib. Sosial media platformaları ayda neçə uşağın sosial şəbəkə hesabını bağladıqları barədə məlumat təqdim etməlidirlər. Fransa "rəqəmsal yetkinlik" yaşını 15 olaraq müəyyənləşdirib.

Çin "gənclik rejimi" tətbiq edərək uşaqlar üçün oyun və sosial media vaxtını gündəlik 40 dəqiqə ilə məhdudlaşdırıb, gecə saatlarında isə giriş bağlanır. ABŞ-da 14 yaşdan aşağı uşaqların sosial media hesabı açmasını qadağan edən qanun qəbul edilib. Böyük Britaniya "Onlayn Təhlükəsizlik Aktı" vasitəsilə texnologiya şirkətlərinə uşaqları zərərli məzmundan qorumaq öhdəliyi qoyub, əks halda milyardlarla funt-sterlinq cərimə nəzərdə tutulur.

Avropa İttifaqı Rəqəmsal Xidmətlər Aktı çərçivəsində yetkinlik yaşına çatmayanların şəxsi məlumatlarının hədəfli reklamlar üçün toplanmasını qadağan edib.

Azərbaycanda da uşaqların rəqəmsal təhlükəsizliyi məsələsi dövlətin diqqət mərkəzindədir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunub.

Layihəyə əsasən, 16 yaşı tamam olmamış şəxslərin platformalarda fərdi rəqəmsal hesablarının yaradılmasına yol verilməyəcək. Təklif olunan dəyişikliyə əsasən, provayderlər bu qanun qüvvəyə mindikdən sonra 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişin məhdudlaşdırılmasını, şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesabların və fərdi məlumatlarının silinməsini təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

16–18 yaşarası uşaqların həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan zərərli məzmunların yayılmasının qarşısının alınması üçün provayder platformada fasiləsiz rejimdə fəaliyyət göstərən və operativ müdaxiləni təmin edən rəqəmsal



həlləri tətbiq etməlidir. Belə halların qarşısının alınması üzrə provayderin texniki müdaxilə müddəti zərərli məzmunun aşkar edildiyi andan etibarən 24 saatdan artıq olmamalıdır.

Nəticə etibarilə sosial şəbəkələr idarə olunmadıqda uşaq və yeniyetmələrin həm mənəvi, həm də fiziki sağlamlığını təhdid edən rəqəmsal silaha çevrilir. Azərbaycanda bu məsələyə dair qanunvericilik bazasının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi təqdirəlayiq və zəruri addımdır. Lakin unutmayaq ki, rəqəmsal gigiyenanın təmin edilməsi təkcə qanunların deyil, həm də cəmiyyətin, təhsil müəssisələrinin və valideynlərin birgə məsuliyyətidir.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik